# *AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN*
## *Hərbi Tibb Fakültəsinə Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə və Əczaçılıq ixtisasları üzrə 2024/2025-ci tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**
**Tədris dili:** **Azərbaycan dili** **Təhsil forması:** **əyani**
**Təhsil müddəti:** Hərbi tibb ixtisası - **6 il**; Stomatologiya ixtisası - **5 il**;
İctimai səhiyyə ixtisası - **5 il**; Əczaçılıq ixtisası - **4 il**.

Cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər.

**SƏNƏDLƏRİN QƏBULU:**

Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə və Əczaçılıq ixtisasları üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər **1 aprel 2024-cü il tarixindən 30 aprel 2024-cü il** tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı **sənədlər** əlavə olunmalıdır:

1. **Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış**
2. **Anket forması (yerində doldurulur)**
3. **Oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə**
4. **Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)**
5. **Doğum haqqında şəhadətnamənin surəti**
6. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış**
7. **Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli və uşaq hlduqda)**
8. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
9. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm**
10. **18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri ölçüdə**
11. **Tibb üzrə:** **Elektrokardioqramma, Qanın və Sidiyin ümumi analizi, Qan qrupu və rezus-faktor, Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara və Hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri, psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar**

***Qeyd: 1. Namizədlər hər hansı səbəbdən Hərbi Tibb Fakültəsində təhsil almaqdan imtina etdikləri halda, Azərbaycan Tibb Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.***

***2. Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.***

***HƏRBİ TİBB FAKÜLTƏSİNƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR***

**1.** Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən institutda təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Hərbi Tibb Fakültəsinə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Hərbi Tibb Fakültəsində təhsil almaq üçün namizədlər siyahısına ***daxil edilmirlər***.

**2.** Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün **Dövlət İmtahan Mərkəzinə** göndərilir və onlar **Dövlət İmtahan Mərkəzi** tərəfindən keçirilən ***qəbul imtahanı*** verirlər. Qəbul imtahanı ***IV ixtisas qrupunun*** fənləri üzrə keçirilir.

***3. Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.***

***İMTİYAZLAR***

***- Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər ödənişsiz əsaslarla təhsil alırlar.***

***- Hərbi Tibb Fakültəsinə Hərbi tibb ixtisası üzrə qəbul olmuş şəxslər 4-cü kursadək, Stomatologiya və İctimai səhiyyə ixtisasları üzrə qəbul olmuş şəxslər 3-cü kursadək, Əczaçılıq ixtisası üzrə qəbul olmuş şəxslər 2-ci kursadək təhsil aldıqdan sonra hərbi andı qəbul edirlər və bütün növ təminatlarla təmin edilirlər.***

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə sənəd qəbulu mərkəzlərində bildiriləcəkdir.***

**Ətraflı məlumat üçün əlaqə nömrəsi:**
***0811 (həftənin iş günləri, saat 09:00-dan 18:00-dək)**
**Web ünvan:** www.mmu.edu.az